# TARİX YAZAN BÖYÜK ŞƏXSİYYƏT

**Heydər Əliyevin zəngin ictimai-siyasi ömür yolu əsl örnəkdir. Heydər Əliyev hər zaman Azərbaycan xalqına bağlı olub və onun ömür yolu elə Azərbaycan tarixinin bir hissəsidir. Əgər söhbət Heydər Əliyevin siyasi portretindən gedirsə, birmənalı şəkildə vurğulamaq istərdik ki, Ulu Öndər ən mürəkkəb, ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətdə də təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və dəqiq hesablayan bir lider idi.**



Ölkəmizin bu gününə nəzər salsaq, qeydşərtsiz iddia edə bilərik ki, Heydər Əliyev müstəqil Azərbaycanın gələcəyini 20-30 il öncədən görən lider olub. Heydər Əliyevin rəhbərlik etdiyi sovet Azərbaycanında əldə edilən iqtisadi nailiyyətlər, təməli atılan nəhəng layihələr, bu layihələrin müstəqil Azərbaycan üçün strateji önəmi barədə çox danışmaq olar. Amma mən bir faktı xüsusilə qeyd etmək istərdim. Heydər Əliyev sovet rejiminin ən güclü vaxtlarında Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq bir məktəbin yaradılmasına nail olub. O məktəb ki, Azərbaycanda milli ordu quruculuğunun əsas tədris ocaqlarından birinə çevrildi.

Adətən böyük şəxsiyyətlərə obyektiv qiymət verərkən onların yaşadıqları dövrün imkanları ilə müqayisədə nələri edə bildikləri əsas götürülür. Bu baxımdan, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərə nəzər salsaq, birmənalı olaraq deyə bilərik ki, o, zamanın və şəraitin verdiyi imkanlardan öz xalqının maraqları və yüksəlişi naminə maksimum istifadə edib.

Azərbaycanda Heydər Əliyev siyasəti, onun dövlətçilik xətti daim davam edəcək. Çünki bu siyasət Azərbaycanın gələcək tərəqqisinin təminatı baxımından lazımdır.

Heydər Əliyev siyasəti tarazlı siyasət olmaqla cəmiyyətin bütün təbəqələrinin mənafelərini ifadə edir, cəmiyyətdə ahəngdarlıq yaradır, vətəndaşların hüquq və azadlıqlarını, onların milli dövlətçilik mənafelərini, açıq cəmiyyətin ali dəyərlərini müdafiə edir. Orta statistik azərbaycanlı Heydər Əliyevin simasında ümummilli liderə məxsus bütün keyfiyyətləri - rasionalizm, müdriklik, qətiyyət, siyasi uzaqgörənlik, realizm və novatorluğu görür.

Siyasətdə müdriklik, həyatda praqmatizm məktəbi, dövlət idarəçiliyində ustalıq - bu böyük siyasətin ana xəttini təşkil edir. Azərbaycan siyasətçiləri içərisində heç kimə bu qədər siyasət olimpinin zirvəsində qalmaq və vətəninə, xalqına xidmət etmək və ürəklərdə sağlığında özünə heykəl ucaltmaq da nəsib olmayıb.

Heydər Əliyev özü şəxsiyyət kimi tarixi hadisədir. Tarix şəxsiyyəti yaradır, şəxsiyyətlər isə yeni tarixi. O, həmişə lider olub. Heydər Əliyev sənin, mənim, onun - Azərbaycan xalqının gözü qarşısında dahiləşib, əbədiləşib, zirvələşib. Heydər Əliyevin ən böyük fəxri, qüruru onun yaratdıqları, gördüyü işlərlə doğma xalqının qəlbini fəth etməsi idi. Bu fəthilə o, xalqının qəlbində əbədi yaşayacaq - bugünkü nəslin də, sabahkı nəslin də. Bu gözəl insanın ömür salnaməsini dönədönə vərəqləmək, oxumaq, öyrənmək və oxuya-oxuya, öyrənə-öyrənə sevərək təbliğ etmək lazımdır, çünki Heydər Əliyevin ömrü elə yaşadığımız Azərbaycanın tarixidir.

**Şahin SEYİDZADƏ,**
**Milli Məclisin deputatı.**

Respublika.- 2024.- 11 dekabr (№ 273).- S.4.